PEDAQOGİKA VƏ METODİKA

https://doi.org/10.30546/114578.2025.6.1528

XARİCİ DİL DƏRSLƏRİNDƏ ŞİFAHİ NİTQDƏ YARANAN ÇƏTİNLİKLƏR

Səkinəxanım Vəliyeva
filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Unversiteti
http://ORCID.org/0000-0002-6954-9136
veliyevasekine56@gmail.com

Xülasə

Məqalədə nitq bacarıqlarının formalaşdırılması zamanı qarşıya çıxan çətinliklər və onların həlli yollarından bəhs edilir. Xarici dil dərslərində şifahi nitq prosesində yarana biləcək problemlərə utancaqlıq, tələbələrin fikirlərini ifadə edə bilməməsi, ana dilindən daha çox istifadə etmələri daxildir. Müəllimlər bu problemləri aradan qaldırmaq və tələbələrin nitqini inkişaf etdirmək üçün müxtəlif yanaşmalardan istifadə etməlidirlər. Buna əsasən effektiv təlim və tədris prosesləri uğurla təşkil oluna bilər.

Məqalədə həmçinin nitq dərslərində müəllimin rolu xüsusilə vurğulanır. Çünki müəllimlər tələbələrin rahat ünsiyyət qura biləcəyi bir mühit yaratmasalar, onlar özlərini narahat hiss edəcək və fikirlərini düzgün ifadə etməmək qorxusu yaranacaq. Bu da tələbələrin nitq bacarıqlarının inkaşafına maneə yaradacaq.

Açar sözlər: xarici dil, tələbə, müəllim, nitq bacarığı, problem.

DIFFICULTIES IN ORAL SPEECH IN FOREIGN LANGUAGE LESSONS

Sakinakhanum Valiyeva
Azerbaijan State Pedagogical University

Abstract

The article discusses the difficulties encountered during the formation of speech skills and ways to solve them. Problems that may arise in the process of oral speech in foreign language lessons include shyness, students' inability to

express themselves, and using their native language more. Teachers should use their principles to overcome these problems and develop students' speech.These principles allow effective learning and teaching processes to be successfully organized.

In addition, the article also emphasizes the role of the teacher in speech lessons. Because if teachers do not create an environment where students can communicate comfortably, they will feel uncomfortable and fear of not expressing their thoughts correctly. This will also hinder the development of students' speech.

Key words: Foreign language, student, teacher, speech skills, problem.

ТРУДНОСТИ ПРИ ОБУЧЕНИИ УСТНОЙ РЕЧИ НА УРОКАХ ИНОСТРАННОГО ЯЗЫКА

Сакинаханум Валиева
Азербайджанский государственный педагогический университет

Резюме

В статье рассматриваются трудности, возникающие при формировании речевых навыков, а также пути их решения. В процессе устной речи на занятиях по иностранному языку могут возникать такие проблемы, как стеснительность, неспособность студентов выразить свои мысли и чрезмерное использование родного языка. Для устранения этих трудностей и развития речевых навыков преподаватели должны применять различные подходы. Это, в свою очередь, способствует успешной организации эффективного учебного процесса.

В статье также подчёркивается особая роль преподавателя на уроках устной речи. Если учитель не создаст комфортную коммуникативную среду, студенты могут испытывать дискомфорт и страх перед неправильным выражением своих мыслей, что станет препятствием для развития их речевых навыков.

Ключевые слова: иностранный язык, ученик, учитель, речевые навыки, проблема.

Giriş / Introduction

Dərs zamanı tələbələrə xarici dildə danışmağa kömək edən müəllimlər hər zaman nitqlə bağlı problemlərlə qarşılaşa bilərlər, buna görə təlim prosesində yaranan maneələrin qarşısını almağa hazır olmalıdırlar. Musliadi qeyd edir ki, nitq

bacarıqlarının öyrədilməsi və öyrənilməsi ilə bağlı bir sıra problemlər öyrənənlərin, yəni tələbə və şagirdlərin daxilindən qaynaqlanır [Musliadi, 2016:77]. Digər tərəfdən, Nunani nitqin effektiv öyrədilməsi və öyrənilməsində təkcə daxili amillərdən deyil, həm də xarici amillərdən təsirləndiyini iddia edir [Nunan, 1999:193].

Musliadiyə görə, daxili problemlər öyrənənlərin özlərindən qaynaqlanır, o cümlədən istifadə etdikləri dildən yaranır. Bu problemlər xarici dildə səlis danışmağı öyrənməyə manea olur. Beləliklə, şagirdin daxilindən yaranan və müəllimin köməyi ilə öz həllini tapması lazım olan problemlər daxili maneələr kimi tanınır. Eyni zamanda, xarici dil öyrənənlərin öyrəndikləri dildə danışarkən qarşılaşdıqları maneələrə daxili amillərdən daha çox xarici amillər təsir edir. Xarici amillər öyrənənin özündən deyil, kənardan gələn problemlərdir. Məsələn, ətraf mühit, ailə, məktəb şəraiti və s. İstər öyrənənlərin özündən, istərsə də kənardan yaranan bütün problemlər öyrənmədə maneələrə səbəb olacaq və biliklərin ötürülməsi və paylaşılması səmərəsiz olduğu üçün müəllimlər üçün çətinliklər yaradacaq.

Xarici dil öyrənməni çətinləşdirən bir neçə amil tədqiqatçılar tərəfindən ətraflı araşdırılmışdır. Bu amillərə öyrənənlərin səhv etmək qorxusu, tələbələrin tənqid qorxusu, xarici dildə danışarkən onların utancaqlığı, istənilən bir nitq prosesində iştirakın aşağı olması, ana dilindən çox istifadə etmələri daxildir.

Səhv etmək qorxusu. Tələbələrdə xarici dildə danışarkən səhv etmək qorxusu həm mənfi qiymətləndirmə, həm də tənqid ilə əlaqələndirilir. Səhv etmək qorxusu öyrənənlər arasında ümumi bir qorxudur, çünki onlar xarici dildə danışarkən səhv etdikdə müəllimdən mənfi rəy almaq və həmyaşıdlarının istehzaları ilə qarşılaşmaqdan çəkinirlər. Nəticədə öyrənənlər nitq fəaliyyətində iştirak etməyi dayandırırlar.

Utancaqlıq. Utancaqlıq, adətən, tələbələrin müəllimlərinin göstərişlərinə əməl etmək üçün təzyiq hiss etdikdə, xüsusən də sinifdə nitq fəaliyyətləri zamanı özünü göstərən emosional vəziyyətdir. Utancaqlıq hər bir insanda qorxu hissi ilə yaranır. Bəzi tələbələr təbiətcə olduqca sakit olduqları üçün utancaqlıq hiss edirlər. Bu vəziyyətdə olan tələbələr dostları və müəllimləri qarşısında danışmaqdan qorxduqları üçün qorxaq və özünə inamsız olurlar. Xarici dil öyrənənlərin çoxu bu dildə danışarkən utancaq olurlar, çünki danışarkən səhv edəcəklərini düşünürlər.

Fikirlərini ifadə edə bilməmək. Tələbələr sinif qarşısında danışarkən və ya digər tələbələrlə ünsiyyət qurarkən öz fikirlərini ifadə etmək üçün

motivasiyaları olmur, buna görə də onlar söz tapmaqda çətinlik çəkir və nə demək istədiklərini izah edə bilmirlər. Bəzən tələbələrin fikirlərini ifadə edə bilməməsinin səbəbi ola bilsin ki, müəllimin onlara uyğun olmayan mövzu seçməsi və ya bu mövzuda çox məlumatları olmadığı üçündür. Müəllim tələbələrdən xarici dildə bir şey söyləməyi xahiş etdikdə, onlar cavab verməkdə çətinlik çəkirlər, çünki onlar nə deyəcəklərini, hansı lüğətdən istifadə edəcəklərini və ya qrammatikadan necə düzgün istifadə edəcəklərini dəqiq bilmirlər.

Dərslərə dəvamiyyətin aşağı səviyyədə olması. Xarici dildə danışan tələbələrin dərslərdə az iştirak etməsinə səbəb olan bir çox amillər var. Bu amillərə təkcə tələffüz, qrammatika, lüğət, səlis danışıq qabiliyyəti, anlama kimi nitq bacarıqları üzrə məhdud biliklərə malik olması deyil, həm də utancaq danışmaq, özünə inamın olmaması, danışma təcrübəsinin olmaması, vaxtın idarə edilməsi kimi şəxsi səbəbləri də daxildir. Hər bir tələbənin dərslərdə eyni şəkildə iştirak etməsi ideal məqsəd deyil. Bunun əvəzinə, məqsəd bütün tələbələrin öyrənmək üçün bərabər imkanlara malik olduğu və mövzuların müxtəlif perspektivlərdən hərtərəfli araşdırıldığı bir sinif şəraiti yaratmaqdır.

Ana dildən istifadə. Tədris və təlim prosesi zamanı tələbələrin ana dilindən istifadə etmələrinin bir neçə səbəbi var. Birincisi, öyrənənlər dərs haqqında məlumat aldıqda onlara xarici dildə müzakirə aparmaq üçün lazım olan dil bilikləri verilmir. Digər səbəb isə müəllimin tələbələrdən hər zaman sinifdə hədəf dildən və ya ingilis dilindən istifadə etmələrini tələb etməməsidir. Sinifdə bir neçə tələbə ana dilindən istifadə etdikdə və sonra öyrənənlər müəllimlərinin bu dildə cavab verdiyini görəndə daha çox ana dilindən istifadə edirlər.

Müəllimlərin tələbələrin nitqini inkişaf etdirmək üçün istifadə etdikləri prinsiplər. Tələbələrin nitqinin dəqiqliyi və axıcılığının artırılmasına bir çox üsullarla nail olmaq olar. Dəqiqliyi və səlisliyi birləşdirmək üçün birinci strategiya əsas fəaliyyət ətrafında mərkəzləşmiş tapşırıqlar silsiləsindən istifadə etməkdir. Dərsdən əvvəl müəllim mövzuları və lüğəti müzakirə etməli və həmin mövzuları təcrübədən keçirməklə öyrənənləri əsas söz ehtiyatı və qrammatika ilə təmin etməlidir. Sonrakı məşq mərhələsidir, burada tələbələr kiçik qruplarda öz fikirlərini sərbəst və səhv etməkdən qorxmadan ifadə edirlər. Bu mərhələdə müəllim hər bir tələbəyə yaxınlaşır və şərhlər verir. Mövzu üzrə tələbə müzakirəsindən sonra müəllimlər performans mərhələsinə keçə bilirlər, bu zaman tələbələr mövzunu müzakirə etmək imkanı əldə etdikdən sonra tapşırığı sinif qarşısında bir qədər dəqiq və səlis şəkildə yerinə yetirmək üçün özlərini kifayət qədər rahat hiss edə bilirlər. Təbii ki, biz tələbələrin bir gündə həm səlis, həm də

dəqiq danışmasını gözləyə bilmərik, lakin bu dövr tələbələrin tam iştirakı ilə çoxsaylı dərslər vasitəsilə gündən-günə izlənilirsə, onların nitq bacarıqları bu baxımdan yaxşılaşacaq.

İkincisi, müəllimlər ilk növbədə tələbələrin səlis danışması üçün fəaliyyətlər planlaşdırırlar. Rollu oyunlar, müzakirələr, cüt və ya qrup işi və s. Sürətli şifahi danışığı əhatə edə bilən bu fəaliyyətlərin məqsədi tələbələrə düzəliş tələb etmədən effektiv danışmağı öyrətməyə kömək etməkdir.

Üçüncüsü, ətraf mühit səlis danışmağa çox kömək edir. Tələbələr xaricidilli mühitə məruz qaldıqda, məsələn, müəllimlər bu dildə tez-tez danışdıqda, xarici dildə kitab və qəzetlərdən istifadə etdikdə və ingilis dilində audio kasetləri dinlədikdə, tələbələr dili təbii şəkildə öyrənə bilərlər. Bundan əlavə, müəllimlər müntəzəm olaraq onlara daha çox vaxt məhdudiyyəti qoysalar, tələbələr avtomatik olaraq səlis danışmaq qabiliyyətini də inkişaf etdirə bilər.

Dördüncüsü, qarşılıqlı əlaqə öyrənənlərin nitq bacarıqlarının artırılmasına kömək edən digər mühüm amildir. Sosial münasibətlər qarşılıqlı əlaqə yolu ilə qorunur, ideyalar və məlumatlar isə əməliyyat yolu ilə ötürülür. Qarşılıqlı əlaqə vasitəsilə tələbələr özlərini həm şifahi, həm də qeyri-şifahi şəkildə ifadə etmək və gündəlik ünsiyyətdə niyyətlərini effektiv şəkildə çatdıran diskurs qurmaq bacarıqlarını inkişaf etdirə bilərlər.

Nəticə etibarilə, müəllimlər öyrənənlərə müvafiq mövzular haqqında mənalı dialoqda iştirak etmək şansı vermək üçün tələbələr arasındakı əlaqədən istifadə etməlidirlər. Bundan əlavə, müəllimlər tələbələrinə qrup şəraitində ünsiyyət qurmağı, dinləmələri və mənaları müzakirə etməyi öyrətməyə kömək edən ünsiyyət vasitələri təqdim etməlidirlər. Bu, şifahi ünsiyyətin müxtəlif formaları vasitəsilə həyata keçirilə bilər, məsələn, salamlaşmaq, icazə istəmək, söhbətə başlamaq və bitirmək, üzr istəmək, təşəkkür etmək və s. Bəzi digər fəaliyyətlər orta və yuxarı səviyyələr üçündür; nağıl danışmaq, zarafat etmək, bir insanı və yeri ətraflı təsvir etmək, filmin, tamaşanın, kitabın mövzusunu izah etmək, qısa mühazirə və ya çıxış etmək, mövzunu müzakirə etmək kimi [bax: Nunan,1999:125]. Digər tərəfdən, tələbələri interaktiv danışmağa həvəsləndirmək, onlara audio-vizual stimullar vasitəsilə orijinal dillə geniş məlumat vermək və dildən istifadə etmək imkanlarını təmin etmək üçün çox vacibdir.

Beşincisi, nitq dərsinin uğurlu olması üçün müəllimlər hər bir tələbənin ünsiyyət qurmasında bərabər imkanlara malik olmasını təmin edərək, nisbətən tam iştiraka şərait yaratmalıdırlar. Xarici dil dərslərdə müntəzəm iştirak etmək

utancaq insanların ruhdan düşdüyü və özlərinə olan inamını itirdiyi vəziyyətlərin qarşısını almağa kömək edir.

Buna görə də qrup və ya cütlərlə iş apararkən tələbələrin heç bir təzyiq olmadan fikirlərini sərbəst ifadə edə bilməsini təmin etmək üçün müəllimlər həm şəxsiyyət tiplərinə, həm də dil biliklərinə əsaslanan qruplar yarada bilərlər. Hər bir tələbənin bacarıq səviyyəsinə uyğun olan sualların verilməsi iştiraka həvəsləndirməyin başqa bir yoludur. Müəllimlər çətin suallara cavab vermək üçün güclü tələbələri və daha asan suallara cavab vermək üçün zəif tələbələri seçə bilərlər.

Nəticə olaraq, əvvəlcə müəllimlər tələbələri lazım olduqda hədəf dildə danışaraq sinifdə ikinci dillərindən istifadə etməyə təşviq edirlər. Bundan əlavə, tələbələr xüsusən də səhvlər olduqda çox vaxt bu dildə nitqə qulaq asmaqla həmyaşıdlarından, müəllimlərindən və hətta özlərindən öyrənə bilərlər. İkincisi, tələbələrin vurğu və ritm haqqında öyrənməsinə kömək etmək üçün müəllimlər nitq fəaliyyətinə başlamazdan əvvəl onları filmlərə baxmaq, səs yazılarına qulaq asmaq vasitəsilə aktual dillə tanış etməlidirlər. Bunu etməklə müəllimlər tələbələrin danışmasını asanlaşdıra bilər, çünki dinləyici olmaq tələbələrə natiq kimi çıxış edərkən istifadə edə biləcəkləri modellər verməklə yanaşı, həm də onlara gələcək nitq tapşırıqları üçün bəzi fikirlər verir. Eyni zamanda, səsyazma və videoların səsləndirilməsi tələbələri dərsdə iştirak etməyə həvəsləndirən rahat, cəlbedici mühitin yaradılmasına kömək edir.

Ümumiyyətlə, yuxarıda qeyd olunan prinsiplər indiyə qədər xarici dil öyrətmək üçün çox faydalı olduğunu sübut etmişdir. Bu prinsiplərlə yanaşı, şifahi nitq vərdişlərinin inkişafında motivasiya da əsas rol oynayır. Motivasiya öyrənənləri materialı öyrənmək üçün həvəsləndirir, öz fikirlərini açıq və sərbəst ifadə etməyə imkan verir. Öyrənənlərə danışmaq üçün maksimum imkanların verilməsi onların xarici dildə danışıq ehtiyaclarını ödəməyə və dildən real həyatda istifadə etmək bacarıqlarını inkişaf etdirməyə kömək edir. Danışığın düzgünlüyünə deyil, səlisliyə daha çox diqqət yetirilməsi və bu iki amilin nisbətən uyğun birləşməsi tələbələrin nitq bacarıqlarını mükəmməlləşdirməyə kömək edir.

Nəticə/Conclusion

Tələbələr bir-biri ilə ünsiyyət quraraq sinifdən kənarda bir-biri ilə danışmağı məşq edə bilərlər ki, bu da onlara ünsiyyət qurmağa imkan verən sosial münasibətləri qorumağa kömək edər. Nitq proseslərində iştirak etmək hər bir tələbəyə ictimai nitqlə məşğul olmaq imkanı verir. Bundan əlavə, öyrənənləri

xaricidilli mühitlə tanış etmək onlara şüuraltı şəkildə dil və modellər əldə etməyə kömək edir ki, bu da onların təbii və səlis danışmasını asanlaşdırır.

ƏDƏBİYYAT/REFERENCES

1. Abbasov Ə. (2016). Azərbaycan dili və nitq mədəniyyəti. − Bakı: Elm və təhsil. − 256 s.

2. Abdullayev. A.S (1981). Nitq mədəniyyəti və natiqlik sənəti. − Bakı: Elm. − 283 s.

3. Abdullayev N, Məmmədov Z. (2008). Nitq mədəniyyətinin əsasları. − Bakı: Elm və təhsil. – 333 s.

4. Musliadi, M. (2016). The Problems of Teaching Speaking English with Respect to the Teaching Methodology: Task-Based Language Teaching. − Cokroaminoto Polo University: In Ethical Lingua. − Vol. 3 (1). − 74-88 p.

5. Nunan, D. (1999). Second Language Teaching & Learning. − Boston: Heinle& Heinle Publishers. − 330 p.

Məqalə tarixçəsi

Daxil olub *28.01.2025*
Düzəlişə göndərilib *11.02.2025*
Qəbul edilib *04.03.2025*
Nəşrə tövsiyə edib *Ülviyyə Hacıyeva*
filologiya üzrə fəlsəfə doktoru, dosent